## *Dadaş Dadaşovun Bir saylı Simfoniyası*

**Məmmədova Lətifə (AMK)**
**Fakültə:Musiq tarixi və nəzəriyyəsi**
**İxtisas:Musiqi tarixi**
**Kurs:II**
**Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vəfa Xanbəyova**

Simfonik musiqi Azərbaycan bəstəkarlarının yaradıcılığında prioritet janrlardan birini təşkil edir. Bildiyimiz kimi, Azərbaycan simfonizmi nəinki klassik ənənələrlə əlaqəni, eləcə də fərdi yanaşma metodlarını özündə əks edir. Simfonik musiqidə ən aktual problemlər öz əksini tapıb. Bunlardan biri də vətənpərvərlik mövzusu təşkil edir. Böyük Vətən Müharibəsi dövründə bu mövzuya külli sayda əsərlər həsr olunmuşdur. Sonraki dövrlərdə də bu böyük qələbəni vəsf edən müxtəlif bəstəkarlar önə çıxdı. Təqdim olunan dissertasiya işi Dadaş Dadaşovun Böyük Vətən Müharibəsinə həsr olunmuş Birinci simfoniyasının tədqiqini təşkil edir.

Vətənpərvərlik mövzusu Azərbaycan musiqisində, xüsusilə XX əsrin 90-cı illərindən başlayaraq, ən önəmli və aktual məsələlərdən birinə çevrildi. Xalqın şücaətini, rəşadətini, mübarizliyini əks edən əsərlər hər birimizin qəlbində əks səda tapdı. Qəhrəmanların qanı bahasına əldə etdiyi qələbələr şanlı tariximizdə əbədiləşdirilir və əbədiləşdiriləcək. Bu baxımdan D.Dadaşovun vətənpərvərlik mövzulu Birinci simfoniyasının araşdırılması tədqiqatın aktuallığını təşkil edir.

Simfonik, vokal və kamera-instrumental əsərlər bəstəkarın yaradıcılığında yetərincə təqdim olunub və məzmununa görə rəngarəngdir. Onlar Azərbaycan musiqi mədəniyyətinin inkişafı axarında və eyni zamanda D.Dadaşovun bir sənətkar kimi püxtələşməsi nəticəsində meydana gəlmişdir. Bu kimi əsərlər bəstəkar yaradıcılığının inkişaf mərhələlərini araşdırmağa imkan verir. Məhz Birinci simfoniya da belə kompozisiyalardandır. Bir sıra əsərlərində bəstəkar mo-

nodiyadan irəli gələn xüsusiyyətləri dodekafoniya texnikası ilə uzlaşdırır və fakturada özünəməxsus zənginliyi əldə edir. Belə bir halda hər bir element xüsusi dramaturji əhəmiyyət alır.

Musiqişünaslıqda Dadaş Dadaşov yaradıcılığına dair bir sıra tədqiqatlar mövcuddur. Bunlardan R.Zöhrabovun, L.Hüseynovanın, K.Ələsgərlinin, Ç.Heydərovanın məqalələrini, Ş.Müzəffərovanın magistr dissertasiyasını qeyd etmək olar. Bizim təqdim etdiyimiz tədqiqatda ilk dəfə olaraq D.Dadaşovun simfonik yaradıcılığı, Bir saylı Simfoniyası proqramlı simfonik musiqi kontekstində araşdırılır, onun obraz-məzmun, kompozisiya xüsusiyyətləri təhlil olunur. Bu da təqdim olunan dissertasiya mövzusunun aktuallığını təşkil edir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında qəhrəmanlıq mövzusu iki tipdə özünü büruzə verir. Birincisi: bu mövzu ümümiləşdirilmiş bir şəkildə əks olunur. Yəni burada ümumi obraz, əhval-ruhiyyə nəzərə çarpır. Bununla yanaşı, məzmun cəhətdən vətənpərvərlik simfonik musiqinin ikinci tipində konkret qəhrəmanlara, qəhrəman-şəhərlərə ithaf nəzərə çarpır. Elə D.Dadaşovun da I Simfoniyası ümümiləşdirilmiş şəkildə Böyük Vətən Müharibəsində həlak olanlara həsr olunub, bu qanlı olayın faciəli xarakterini əks edir. Burada vətənpərvər hisslərlə yanaşı fəlsəfi düşüncələr, müasirimizin bu hadisələrə fərdi baxışı təsvir olunur. Əsər özündə ümümbəşəri mövzuları əks edir, mətinlik, əbədiyaşar şəhidlər, vətəndaşlıq borcu kimi ideyanın təcəssümünə yönəlib və kompozisiyanın konsepsiyasını müəyyən edir. D.Dadaşov I Simfoniyada dodekafoniyaya müraciət edir. Bununla yanaşı o, muğam təfəkküründən irəli gələn prinsiplərə də üz tutur. İnkişaf nəticəsində 12 tonlu səs sırasına sərbəst yanaşma nəzərə çarpır. Gərgin dramaturgiya inkişafı real tarixi hadisələrə əsaslanır, bu da əsərin daha anlaşıqlı olmasına zəmin yaradır. Simfoniya lirik-dramatik səpkidə öz həllini tapıb, bunula yanaşı fəlsəfi ümumiləşdirmələr də burada yer alıb. I Simfoniya 6 hissədən ibarətdir və hər hissə silsilədə müəyyən rol oynayır. Qeyd edək ki, bəstəkarın yaradıcılığında 6-hissəli simfoniyanın yaranması klassik sonata-simfonik silsilənin prinsiplərindən uzaqlaşma kimi yox, daha çox, bu formanı özünəməxsus bir şəkildə təfsirindən irəli gəlir.